May 2016

# PwC Azerbaijan Times

## 9 saylı Buraxılış

### Buraxılışın əsas xəbərləri:

- Cinayət Məcəlləsinə dəyişikliklər
- İnzibati Xətalar Məcəlləsinə dəyişikliklər
- “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər
- “Antiinhisar fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər
- "Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə qanun layihəsi
- Vergi və sosial sığorta haqqı ödəməkdən yayınmaya görə cəzaların ağırlaşdırılması təklif olunur



pwc

Burada əks olunan məlumatlarla bağlı hər hansı bir sual yaranarsa, Marketinq və Kommunikasiya məsələləri üzrə Menecer Aysel Süleymanova ilə əlaqə saxlaya bilərsiniz.

aysel.suleymanova@az.pwc.com

**PwC Azərbaycan**

Landmark Ofis Plaza III, 12-ci mərtəbə
90A Nizami küçəsi
Bakı AZ1010, Azərbaycan

Tel: +994 12 497 2515
Faks: +994 12 497 7411

www.pwc.com/az

© 2016 PwC. Bu xəbərdə əks olunan informasiya yalnız ümumi məlumat xarakteri daşıyır və hərtərəfli hüquqi analiz təşkil etmir. Məlumatların dəqiqliyinə və tamlığına dair heç bir zəmanət verilmir. Hər hansı bir nəticəyə gəlib onu tətbiq etməzdən (və ya etməməzdən) əvvəl oxucular öz spesifik məsələləri üzrə mütəxəssislərin məsləhətini almalıdırlar. Oxucuların bu xəbərlərdəki məlumata əsaslanıb hər hansı bir nəticəyə gəlib onu tətbiq etmələrinə və ya hər hansı vacib məqamı nəzərdən qaçırmalarına görə biz heç bir məsuliyyət daşımırıq.

## *Cinayət Məcəlləsinə dəyişikliklər*

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə dəyişiklik edilməsi haqqında qanuna əsasən, inhisarçılıq hərəkətləri və rəqabəti məhdudlaşdırma haqqında maddəyə dəyişikliklər edilmişdir. Yeni redaksiyaya əsasən, törədilmiş əmələ görə bəzi cəza növləri ağırlaşdırılmış, digərləri isə yeniləri ilə əvəzləşdirilmişdir.

Belə ki, köhnə redaksiyaya uyğun olaraq, inhisarcasına yüksək və ya inhisarcasına aşağı qiymət təyin etməklə, və qanunla müəyyən edilmiş digər hərəkətlər vasitəsi ilə inhisarçılıq hərəkətlərini etmə yüz manatdan beş yüz manatadək miqdarda cərimə və ya 1 (bir) ilədək müddətə islah işləri və ya 2 (iki) ilədək müddətə azadlığın məhdudlaşdırılması ilə cəzalandırılırdısa, yeni redaksiyada yuxarıda qeyd edilən əməllər cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) iki misli miqdarında cərimə edilməklə 2 (iki) il müddətinə müəyyən vəzifə tutma və müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə və ya 2 (iki) il müddətinə müəyyən vəzifə tutma və müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə 3 (üç) ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Həmin əməllər təkrar törədildikdə, mütəşəkkil dəstə tərəfindən törədildikdə, şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə və xeyli miqdarda ziyan vurduqda və ya xeyli miqdarda gəlir əldə etməklə törədildikdə, 3 (üç) il müddətinə müəyyən vəzifə tutma və müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) üç misli miqdarında cərimə edilməklə 3 (üç) ildən 7 (yeddi) ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Maddədə qeyd edilən əməllər cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədildikdə, hədə-qorxu ilə tələb etmə əlamətləri olmadan, zor tətbiq etməklə və ya zor tətbiq etmək hədəsi ilə, habelə özgənin əmlakını məhv etməklə və ya zədələməklə və ya belə məhv etmə və ya zədələmə hədəsi ilə törədildikdə, külli miqdarda ziyan vurduqda və ya külli miqdarda gəlir əldə

etməklə törədildikdə cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) dörd misli miqdarında cərimə edilməklə 7 (yeddi) ildən 12 (on iki) ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Bundan əlavə, maddənin qeyd hissəsində "xeyli miqdar" və "külli miqdar" anlayışlarına aydınlıq gətirilmişdir. Belə ki, "xeyli miqdar" dedikdə 10 min manatdan 50 min manatadək olan məbləğ, "külli miqdar" dedikdə isə 50 min manatdan artıq olan məbləğ başa düşülür.

Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Qanuna əsasən, dövlət büdcəsinin vəsaitlərindən məqsədyönlü istifadə edilməməsinə dair 308-1 saylı maddə əlavə edilmişdir. Maddədə deyilir ki, Dövlət büdcəsinin, məqsədli büdcə fondlarının və ya büdcədənkənar dövlət fondlarının vəsaitindən təyinatı üzrə istifadə etməmə, bu əməllər xeyli miqdarda törədildikdə səkkiz min manatdan on min manatadək miqdarda cərimə edilməklə üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, yaxud 3 (üç) ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə 3 (üç) ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Həmin əməllər külli miqdarda törədildiyi halda, 3 (üç) ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə 3 (üç) ildən 6 (altı) ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Maddənin qeyd hissəsində "xeyli miqdar" və "külli miqdar" anlayışlarının açıqlaması verilməklə, xeyli miqdar 50 min manatdan 250 min manatadək olan məbləğ, "külli miqdar" isə 250 min manatdan yuxarı olan məbləğ kimi müəyyənləşdirilib.

### *İnzibati Xətalar Məcəlləsinə dəyişikliklər*

Inzibati Xətalar Məcəlləsinin "Dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların maliyyə-təsərrüfat fəaliyyətində maliyyə qaydalarının pozulması" adlı 410-cu maddəsi dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların maliyyə-təsərrüfat fəaliyyətində maliyyə qaydalarının pozulması, o cümlədən dövlət büdcəsindən, həmçinin məqsədli büdcə fondlarından ayrılan vəsaitdən təyinatı üzrə istifadə olunmaması, yaxud büdcə təşkilatlarının büdcədənkənar vəsaitinin maliyyə orqanları ilə razılaşdırılaraq təsdiq edilmiş smetaya uyğun xərclənməməsi, normativdən artıq ştat vahidinin saxlanılması barədədir. Qeyd edilən qanun pozuntularına görə cəza növü dörd min manatadək miqdarda cərimə formasında müəyyənləşdirilmişdir. Sözügedən yeni qanunla həmin maddəyə pozuntunun dörd min manatdan yuxarı məbləğdə törədilməsi halı ilə bağlı yeni müddəa əlavə edilmişdir. Belə ki, dəyişikliyə əsasən sadalanan inzibati xətalar dörd min manatdan yuxarı məbləğdə törədilərsə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların vəzifəli şəxsləri dörd min manatdan səkkiz min manatadək məbləğdə cərimə ediləcəkdir. Qeyd edək ki, yuxarıda göstərilən xətaların törədilməsi cinayət məsuliyyətinə səbəb olmur.

### *"Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər*

Dəyişikliklərə əsasən, ipoteka qoyulan daşınmaz əmlakla bağlı məlumatların əldə edilməsi məqsədi ilə Azərbaycan Respublikasının Mərkəzi Bankı, maliyyə bazarlarına nəzarət orqanı, ipoteka fondları, ipoteka saxlayan banklar və digər kredit təşkilatlarının informasiya sistemləri ilə daşınmaz əmlakın dövlət reyestri arasında əlaqə yaradılmasını nəzərdə tutur.

Daşınmaz əmlak üzərində mülkiyyət və digər əşya hüquqlarının qeydiyyatı üçün zəruri olan mərzçəkmə və inventarlaşdırma işlərinin aparılması ilə əlaqədar daşınmaz əmlak üzərində hüquqların qeydiyyat müddəti qeydiyyat orqanı tərəfindən 5 (beş) iş gününədək uzadıla bilər. Bu halda ərizəçiyə bildiriş təqdim edilməlidir.

Bundan əlavə, dəyişikliklər qanunla müəyyən olunmuş müddətlərə də toxunub. Belə ki:

- daşınmaz əmlak üzərində hüquqları dövlət qeydiyyatına alınması və dövlət reyestrindən çıxarışın verilməsi üçün müddət müvafiq ərizənin və ona əlavə edilən sənədlərin təqdim edildiyi gündən 10 (on) iş günü olaraq müəyyən olunur. Qeyd edək ki, əvvəllər bu müddət 20 (iyirmi) gün təşkil edirdi.

- qeydiyyatın dayandırılması üçün müvafiq əsaslar olduqda, vəzifəli şəxs şübhə doğuran sənədlərə dair müvafiq dövlət orqanlarına sorğular göndərməli və həmin sorğulara cavab 7 (yeddi) gün müddətində verilməlidir. Əvvəllər bu müddət 10 (on) gün təşkil edirdi.

- ipotekanın qeydiyyatı ərizənin qeydiyyat orqanına daxil edildiyi gündən 3 (üç) iş günü müddətində aparılır. Əvvəllər bu müddət 5 (beş) iş günü təşkil edirdi.

28 aprel 2016-cı il tarixində Azərbaycan Respublikası Prezidenti tərəfindən adıçəkilən qanunun tətbiqi barədə Fərman imzalanmışdır.

### *“Antiinhisar fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər*

Aprel ayı üzrə 5 saylı buraxılışımızda qeyd etdiyimiz “Antiinhisar haqqında qanuna dəyişikliklər edilməsi haqqında” qanun layihəsi 28 aprel 2016-cı il tarixində hüquqi qüvvəyə minib.

### *"Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə qanun layihəsi*

Qanun layihəsi abunəçinin müraciəti əsasında uşaqların sağlamlığına və inkişafına ziyan vuran informasiyadan qorunması üçün internet informasiya ehtiyatlarından təhlükəsiz istifadə imkanlarının təmin edilməsini, uşaqların sağlamlığına və inkişafına ziyan vuran informasiyadan qorunması üçün tədbirlər görülməsini tələb etmək hüququn abunəçilərin hüquqlarına əlavə edilməsini nəzərdə tutur. Abunəçinin razılığı (etirazı) abunəçi ilə bağlanan müqavilədə mütləq öz əksini tapmalıdır.

### *Vergi və sosial sığorta haqqı ödəməkdən yayınmaya görə cəzaların ağırlaşdırılması təklif olunur*

Azərbaycan Respublikasının Prezidentinin təqdimatı ilə Cinayət Məcəlləsinin 213-cü maddəsinə (Vergi ödəməkdən yayınma) əlavə və dəyişikliklər Milli Məclisin plenar iclasında müzakirəyə təqdim olunur.

Təklif edilən əlavə və dəyişikliklərə görə xeyli miqdarda vergiləri və ya məcburi dövlət sosial sığorta haqlarını ödəməkdən yayınma nəticəsində vurulmuş ziyanın 2 mislindən 4 mislinə qədər miqdarda cərimə və ya 3 ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə 3 ilə qədər azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd edək ki, hal – hazırda yuxarıda qeyd edilən əməli törətməkdə təqsirli bilinən şəxslər 1000 manatdan 2000 manatadək miqdarda cərimə və ya iki il müddətinədək islah işləri və ya üç il müddətinədək azadlıqdan məhrum etmə ilə cəzalandırılır.